Respublika



27 oktyabr /2021

# Xaçmazda yubiley tədbiri

**Aşıq sənətinin korifeyi, haqq aşığı Dədə Ələsgər 1821-ci ildə Göyçə mahalında, Basarkeçərin Ağkilsə kəndində dünyaya göz açmışdır. Aşıq Ələsgərin əsərlərində məzmun gözəlliyi ilə forma gözəlliyi vəhdət təşkil edir. Ürək sözlərini özünəməxsus bir incəliklə ifadə edən el nəğməkarı Azərbaycan aşıq ədəbiyyatını bir çox orijinal bədii keyfiyyətlərlə zənginləşdirib daha yüksək mərhələyə qaldırmışdır.**




Aşıq Ələsgərin böyüklüyü ondadır ki, min illik bir ənənənin axarında öz yönünü tapmış, öz sözünü deyə bilmiş, heç kəsi təkrar etməmiş, adi sözlərdən hamını heyrətdə qoyan qeyri-adi poeziya yaratmışdır.

Canlı danışıq dilinin geniş imkanlarından məharətlə istifadə edən sənətkar istər klassik ədəbiyyatda, istərsə də aşıq şeirində dəfələrlə işlədilmiş bədii ifadələri yeni şəkildə dinləyicilərə təqdim edir:

*Bəstə boyu, ağ əndamı, gül üzü,*
*Baxdıqca qaşının tağı şirindi.*

Kamana, hilala bənzədilən qaşların gözəlliyini bundan artıq göstərmək çətindir. Qaşlar da o qədər cazibəlidir ki, adam bu füsunkar gözəlliyin seyrindən doymur, baxdıqca ona xoş gəlir:

*Yazıq Ələsgərin var etiqadı,*
*Möhr olunub gözəlliyin baratı,*
*Cismin sadağası, hüsnün zəkatı.*
*Sail olan binəvaya düşərmi?*

İstər klassik yazılı ədəbiyyatda, istərsə də aşıq şeirlərində "qaymaq dodaq" və "bal dodaq" epitetlərinə tez-tez rast gəlirik.

Aşığın şeirlərində də bunlar az yer tutmur. Lakin o, bu epitetləri tamam yeni bir şəkildə işlətmişdir:

*Qənd əzilib dilə, dişə, dəhana,*
*Qaymaq dodaqlara bal bələnibdi.*
*Qabaq ayna - çəkilibdi varağa,*
*Dodaq qaymaq, gül yapışıb yanağa.*

Ümumiyyətlə, Dədə Ələsgərin yaradıcılığında məcazların bütün növlərinə rast gəlirik. Aşıq bunların hər birini böyük sənətkarlıq, yalnız özünəməxsus ifadə tərzi ilə işlətmişdir. El nəğməkarının şeirlərində bədii sənətkarlığın yeni bir xüsusiyyətini görürük.

Dədə Ələsgərin təcnislərindəki misralarında məzmun əlaqəsi çox güclüdür. Təcnisin bir bəndindəki misraların dördünü də bir-biri ilə bağlamaq çox çətin, bəlkə də Aşıq Ələsgərə qədər mümkün olmamış bir işdir. Adi danışıq qədər sadə görünən belə misralar bədii cəhətdən böyük sənətkarlıqla ifadə edilmişdir:

*Xudam səni nə xoş gündə yaradıb,*
*Meylim axır sana sarı, görəndə*
*Həsrətindən yüz yara var sinəmdə,*
*İnsaf eylə, birin sarı görəndə.*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 18 fevral 2021-ci ildə el sənətkarı, aşıq sənətinin korifeyi Dədə Ələsgərin anadan olmasının 200 illiyi ilə bağlı sərəncam imzalamışdır.

Ölkəmizdə yubileylə bağlı geniş hazırlıq işləri aparılır. Bu məqsədlə tədbirlər planı hazırlanmışdır.

Tədbirlər planı çərçivəsində bu günlərdə Xaçmazda Rayon İcra Hakimiyyəti və Dədə Ələsgər Ocağı İctimai Birliyinin təşəbbüsü və təşkilatçılığı ilə el sənətkarının 200 illiyi ilə bağlı yaddaqalan tədbir keçirildi. İlk öncə tədbirə qatılanlar rayondakı Şəhidlər Xiyabanını ziyarət etdilər, şəhidlərin ruhuna dualar oxundu.

Daha sonra açıq səma altında Şəxsiyyətlər Muzeyində yubiley mərasimi keçirildi.

Tədbiri Azərbaycan Aşıqlar Birliyinin sədri, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımov açaraq el sənətkarı Aşıq Ələsgərin həyat və fəaliyyəti barədə geniş məlumat verdi.

Tədbirdə Aşıq Ələsgərin nəticəsi, Dədə Ələsgər Ocağı İctimai Birliyinin sədri Xətai Ələsgərov çıxış edərək 2021-ci ildə ölkə başçısının sərəncamı ilə yubiley tədbirinin keçirilməsini yüksək dəyərləndirdi. Vurğuladı ki, Azərbaycan klassik aşıq şeirinin, xüsusən Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Şəmkirli Aşıq Hüseyn, Aşıq Alı kimi qüdrətli saz-söz sənətkarlarının yaratdıqları sənət incilərinin Aşıq Ələsgər poeziyasının təşəkkül tapmasında böyük təsiri olmuşdur.

Aşıq Ələsgər qızılvəngli Aşıq Alının yanında beş il şəyirdlik etmiş, bu müddətdə o, klassik aşıq poeziyasını dərindən öyrənmiş, saz havalarına bütün incəliklərinə qədər mənimsəmiş, bir sənətkar aşıq kimi formalaşmışdır.

Yubiley tədbirində Dədə Ələsgər Ocağı İctimai Birliyinin sədr müavini Güllü Eldar Tomarlı, Göyçə Mədəniyyət Mərkəzinin rəhbəri Akif Nəbiyev, tibb üzrə fəlsəfə doktorlarından Abbas Bağırov, Nağdəli Zamanov, Xaçmaz Rayon İcra Hakimiyyəti başçısının müavini Könül Nurəddinova, Ələsgərsevərlərdən Maksim Sarıqaya, Salman Balakişiyev, ehtiyatda olan hərbi həkim İmran Qurbanov çıxış edərək, ustad aşığın yaradıcılığının bədii qüdrətindən danışmış, bildirmişlər ki, dərin mənalı qoşmaları, təcnisləri, gəraylıları ilə bədii zövqün yüksək səviyyədə tərənnümçüsü olan Dədə Ələsgər yaradıcılığı Azərbaycan aşıq sənətinin mənəvi xəzinəsinə daxil olub. Aşıq Ələsgər xalqımızın mənəviyyatının bir hissəsinə çevrilmiş söz ustadı, sadələyin və müdrikliyin möcüzəsidir.

**Qədir ASLAN,**
**"Respublika".**